# YAŞAR

## İŞTİRAK EDİRLƏR

Yaşar, Toğrul, Tanya – gənclər, mühəndis-laborantlar
Belokurov – professor
İvanov – professor
Vasilyev – aspirant
Medvedyev – aspirant
İmamyar – kolxoza soxulmuş qolçomaq
Niyaz – İmamyarın qardaşı, kolxozçu
Yaqut – Niyazın qızı
Nigar – Niyazın evində bir qız
Nüsrət – kolxozçu, kənd soveti sədri
Əmirqulu – kolxozçu
Şərəbanı – onun arvadı

Türbət, Mirsəqulu, Əliverdi, Həsən, Səfər – kolxozçular

Prokuror
Müdafiəçi
Fəhlə və kəndlilər



## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

Geniş bir laboratoriya. Mühəndislər-tələbələr əllərində müxtəlif şüşələr və alətlər o yan-bu yana qaçışırlar. Tanya və Toğrul hərəsi bir aparat qabağında işləyirlər. Toğrul işləyir, sonra cəld hərəkətlə qalxıb çəkməcədən şüşə və sairə götürür. Arabir otağa qaçıb qayıdır. İşi bərkə düşəndə isə, sevinib oxuyur.

T o ğ r u l. Vətəndaş qurbağa, sən heç nahaq yerə məndən incimə. Özüm ölüm, iynəni elə vuracağam ki, heç ruhun da inciməyəcək

T a n y a. Tokay, kim ilə danışırsan?

T o ğ r u l. Qurbağa ilə. Tökmüşəm qanına bir qram vərəm mikrobunu, görürəm narazıdır. Çəpəki-çəpəki baxır üzümə...

T a n y a. Sən yenə də nə eləmək istəyirsən?

T o ğ r u l. Heç nə! İstəyirəm vərəm mikroblarını elektriknən öldürüm, qurbağa özü sağ qalsın. Sən öləsən, məsləkimə and olsun ki, tok altında ölməsən, yaşılburun qurbağanı sənə alacağam, evləndirəcəyəm səni. Özüm də Tanyanı alacağam, toyu da birgə eləyəcəyəm.

T a n y a. E...e... Tokay...

T o ğ r u l. Sənə nə var, canım. Yəni, qurbağaların evlənməsinə razı deyilsən? Tanya, bu qurbağa ölməsə, sonra hər kim vərəm oldu, salacağam tok altına. Mikroblarını öldürəcəyəm, özünü sağ-salamat buraxacağam.

T a n y a. Nə oldu, Tokay?

T o ğ r u l. Dayan, dayan, Tanya, işlərim şuluqdur. Elektrik məftilini ilişdirmişəm qurbağaya, Allah vurmuş cük-cük cükküldəyir. *(Oxuyur.)*